Coğrafiya elmləri / Geographical Sciences

MƏRKƏZİ ARAN İQTİSADİ RAYONUNDA SƏNAYENİN İQTİSADİ-COĞRAFİ TƏHLİLİ VƏ ƏRAZİ TƏŞKİLİ

Hicran Tahirova[1]*

[1]*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Coğrafiya İnstitutu*

**Məsul müəllif: hicran.tahirova@geo.edu.az*

Açar sözlər: *Mərkəzi Aran, sənaye, istehsal, ərazi təşkili, emaledici sənaye, enerji istehsalı*

Xülasə. Məqalədə Mərkəzi Aran iqtisadi rayonunda sənaye sahələrinin sahəvi və ərazi baxımından inkişaf dinamikası illər üzrə kompleks şəkildə təhlil edilmişdir. Tədqiqatda emaledici, qida, maşınqayırma, tikinti materialları və yüngül sənaye kimi əsas sahələr üzrə istehsal və fəaliyyət növlərinin dəyişmə meylləri öyrənilmişdir. Coğrafi yanaşma çərçivəsində Mərkəzi Aran iqtisadi rayonunda sənaye istehsalının inzibati rayonlar üzrə paylanması tədqiq olunmuş, sənayenin regiondaxili ixtisaslaşma səviyyəsi və funksional rolu müəyyən olunmuşdur.

Eyni zamanda sənaye müəssisələrinin yerləşməsi, onların coğrafi strukturda balanslı paylanması və infrastrukturla əlaqəsi təhlil edilmişdir. Araşdırma nəticəsində regionda sənayenin inkişafı üçün əlavə investisiyalara, texnoloji yenilənməyə və logistika imkanlarının genişləndirilməsinə ehtiyac olduğu qeyd olunmuşdur.

Araşdırma zamanı kartoqrafik, müqayisəli təhlil, statistik analiz, sistem-struktur kimi metodlardan istifadə olunmuş, sənayenin ərazi təşkili və strukturundakı dəyişikliklər xəritə və qrafik materiallar əsasında göstərilmişdir.

Sonda sənayenin davamlı inkişafı və ərazi üzrə daha səmərəli təşkili üçün tövsiyələr verilmiş və onlar arasında sənaye parklarının yaradılması, yerli resurslardan daha səmərəli istifadə və regionlararası iqtisadi əlaqələrin gücləndirilməsi kimi məsələlər xüsusi vurğulanmışdır.

© 2026 Müəllif(lər). Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutu tərəfindən nəşr edilmişdir. Bu məqalə Creative Commons Attribution 4.0 Beynəlxalq Lisenziyası (CC BY 4.0) əsasında yayımlanır.

Giriş

Azərbaycanın iqtisadi inkişafında sənaye sektoru mühüm rol oynayır və ölkənin regionları arasında sənaye sahələrinin ərazi təşkili iqtisadi-coğrafi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Mərkəzi Aran iqtisadi rayonu ölkənin iqtisadi inkişafında aparıcı yerlərdən birini tutur və burada sənayenin müxtəlif sahələri əhəmiyyətli təsirə malikdir. Belə ki, iqtisadi rayon respublika üzrə istehsal olunan sənaye məhsulunun dəyərinə görə Bakı, Abşeron-Xızı, Şirvan-Salyan, Gəncə-Daşkəsən iqtisadi rayonlarından sonra beşinci yerdə durur (Azərbaycanın sənayesi, 2024). Sənaye iqtisadi rayonun təsərrüfat strukturunun formalaşmasında və inkişafında xüsusi rol oynayır.

Bu məqalənin məqsədi Mərkəzi Aran iqtisadi rayonunda sənaye sahələrinin iqtisadi-coğrafi təhlilini aparmaq, onların ərazi strukturunu və ərazi təşkilini öyrənməkdir. Tədqiqat çərçivəsində sənaye sahələrinin fəaliyyət növləri üzrə bölgüsü, məhsul istehsalının həcmi və inzibati rayonlar üzrə fərqlilikləri araşdırılacaqdır.

Azərbaycan Respublikasında sənayenin inkişafı əsasən XIX əsrin ikinci yarısından sonra başlamışdır. Həmin dövrdə respublikada neft hasilatının artması sənayeləşmə prosesinə xüsusi təsir etmiş və təsərrüfatda neft sənayesinin əhəmiyyətli yer tutmasına səbəb olmuşdur. Təqribən bir əsr sonra regionlarda da sənayeləşmə prosesi başlamışdır. Beləliklə, Mərkəzi Aran iqtisadi rayonunda da sənayenin bir neçə sahəsinin əsası qoyulmuşdur. Hazırda Bakı, Gəncə, Şirvan, Sumqayıt şəhərlərindən sonra respublikanın beşinci sənaye şəhəri olan Mingəçevir şəhərində də ilk sənaye sahəsi olaraq energetika həmin dövrdə yaradılmışdır. Həmçinin iqtisadi rayonda yeyinti və yüngül sənaye sahələri də xüsusi yer tuturdu.

Müstəqilliyin ilk illərində baş verən böhran, bazar iqtisadiyyatına keçid və müharibə şəraiti respublikada olduğu kimi Mərkəzi Aran iqtisadi rayonunda da sənaye sahələrinin tənəzzülə uğramasına səbəb olmuşdur. 90-cı illərdə sənayedə istehsal olunan məhsulun həcmində və növlərində kəskin azalma müşahidə olunmuşdur. Bu proses 1997-ci ilə qədər davam etmişdir.

Həmin dövrdə neft sahəsində atılan önəmli addımlar sənayenin digər sahələrinin də inkişafına müsbət təsir göstərməyə başlamışdır (Nadirov (Red.), 2013).

2004-cü ildən başlayaraq cari ilə kimi regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramlarında (Regionların sosial-iqtisadi inkişafı 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023) sənaye ilə bağlı nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadi rayonda sənayenin infrastruktur təminatı yaxşılaşdırılmış, bir sıra istehsal sahələrinə investisiyalar yönəldilmiş, biznes investisiya mühiti yaradılmışdır. Bununla da iqtisadi rayonun sənayesi yeni inkişaf mərhələsinə başlamışdır. Xüsusilə 2014-cü ilin Azərbaycan Respublikasında "Sənaye ili" elan edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər Dövlət Proqramı"ı qəbul edilmişdir. Bu proqramın tədbirlər planına sənaye potensialının gücləndirilməsi, sənaye müəssisələrinin fəaliyyətinin dəsdəklənməsi, sənaye zonaları və klasterlərin qurulması, kadr potensialının və elmi sənayenin gücləndirilməsi və s. daxil edilmişdir. Həmçinin Mingəçevirdə sənaye parkının yaradılması, infrastrukturunun formalaşdırılması və fəaliyyətinin təşkili də bu proqram əsasında həyata keçirilmişdir (Azərbaycan Respublikasında sənayenin inkişafına dair Dövlət Proqramı, 2014).

Araşdırmanın nəticələri Mərkəzi Aran iqtisadi rayonunda sənaye inkişafının mövcud vəziyyətini anlamağa, sənayenin regional iqtisadi inkişafdakı rolunu müəyyənləşdirməyə və sənayenin səmərəli ərazi təşkili üçün strateji əsaslar yaratmağa imkan verəcəkdir. Bu da öz növbəsində regional inkişafın davamlılığını təmin etmək üçün vacibdir.

Ədəbiyyat icmalı

Dünyada regionlar üzrə sənayenin inkişafı və ərazi təşkili haqqında aparılan tədqiqatları araşdırdıqda xarici tədqiqatçıların bu sahədə kifayət qədər elmi əsərlər yazdığını görürük. Onlardan Rusiya tədqiqatçısı V.N. Lajençev öz əsərlərində istehsalın, o cümlədən sənayenin ərazi təşkili məsələlərini həm nəzəri, həm də təcrübi tərəflərini tədqiq etmiş, ənənəvi və müasir yönümlü ərazi istehsal kompleksləri arasındakı fərqləri qeyd etmişdir (Лаженцев, 2014). T. İ. Buxtiyarova İ.N. Baturina və b. aqrar-sənaye kompleksinin inkişafında rəqəmsal proseslərin tətbiqini və bununla əlaqədar olaraq dəyişikliklər (struktur, texnoloji və s.) zamanı yaranan çətinlikləri araşdırmışlar (Бухтиярова və b. 2025). Belarus tədqiqatçısı İ. Zaprudski sənayenin ərazi və sahə strukturunda baş verən transformasiya dəyişikliklərinin iqtisadi-coğrafi aspekdən təhlil etmişdir (Zaprudski, 2020). İsveç tədqiqatçıları Roman Martin və Hanna Martin regionlar üzrə sənaye sahələrinin transformasiyasında tələbatın rolunu xüsusi vurğulayaraq, onun müasir sənayenin formalaşmasında oynadığı rola diqqət çəkmişlər (Martin və Martin, 2023).

Ümumiyyətlə, dünyada sənayenin inkişafı, ərazi təşkili, strukturu və müxtəlif sahələri haqqında son illərdə D.A. Salfetnikov (2025), Holiuk V. Y., Mehel Kh. O. (2022), S. Kanmani (2025), K. Nallaluthan (2025), A. Pankratov (2025), K.Mussa (2024), Z. Yakunina (2023) və d. tədqiqat əsərləri yazmışlar.

Azərbaycanda sənayenin inkişaf istiqamətləri, ərazi təşkili və müasir vəziyyəti haqqında yerli tədqiqatçılar müxtəlif aspektlərdə araşdırmalar aparmışlar. Onlardan iqtisadi aspektə A.A. Nadirov Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin xüsusiyyətlərini və iqtisadi problemlərini araşdırmışdır (Nadirov, 1976). S.K. Hüseynov sənayenin intensivləşməsi şəraitində strukturun təkmilləşdirilməsi istiqamətini tədqiq etmiş və sənayenin yenidən qurulması ilə bağlı təkliflər vermişdir (Hüseynov, 1984). T.H. Hüseynov Azərbaycanda sənayenin mövcud vəziyyətinin təhlili, sənaye-aqroparklarının, sənaye məhəllələrinin, klasterlərin yaradılması və regionların davamlı inkişafında sənayeləşmənin rolunu tədqiq etmişdir (Hüseynov, 2023).

İqtisadi coğrafi aspektdə Hacızadə A.M. sənayenin inkişafında təbii-coğrafi potensialın və iqtisadi-coğrafi bazanın xüsusi əhəmiyyətini, həmçinin sənaye sahələrinin ərazi təşkilini, onların iqtisadi rayonlara görə yerləşməsi xüsusiyyətlərini tədqiq etmişdir (Hacızadə, 1975). Paşayev N.Ə., Əyubov N.H., Eminov. Z.N. birlikdə yazdıqları monoqrafiyada Azərbaycanda sənaye sahələrinin yaranmasını və inkişaf mərhələlərini araşdırmışlar (Paşayev və b. 2010). İmrani Z.T. və Zeynalova K.Z. birlikdə yazdıqları monoqrafiyada Azərbaycanda sənaye sahələrinin ərazi təşkilini və müasir vəziyyətini təhlil etmişlər (İmrani və Zeynalova, 2014). Babayeva Z.R. (2022), Bağırova F.R. (2020), Abbasova L.M. (2024) öz tədqiqatlarında sənayenin kompleks inkişafının əsas prinsiplərini, strukturunun formalaşmasını, regional-coğrafi xüsusiyyətlərini və iqtisadi-coğrafi problemlərini araşdırmışlar.

Onu da qeyd edək ki, əvvəlki elmi tədqiqatlarda bu ərazi Aran iqtisadi rayonunun tərkibində öyrənilmişdir. Bu məqalədə isə Mərkəzi Aran iqtisadi rayonunun yeni inzibati-iqtisadi bölgüyə əsasən sənayesinin inkişaf meyilləri, sahə strukturu və ərazi təşkili ayrıca tədqiq edilmişdir.


Material və metod

Məqalədə əsas mənbə kimi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materiallarından, yerli tədqiqatçıların sənayenin inkişafı və ərazi təşkilinə dair yazdığı elmi əsərlərdən, rəsmi dövlət sənədlərindən və qəzet materiallarından istifadə olunmuşdur.

Məqalədə kartoqrafik, müqayisəli təhlil, statistik analiz, sistem-struktur metodlarından istifadə olunmuşdur

Tədqiqat regionu

Tədqiqat regionu kimi götürülən Mərkəzi Aran Azərbaycan Respublikasının mərkəz hissəsində yerləşir. O, Şəki-Zaqatala, Dağlıq Şirvan, Şirvan-Salyan, Mil-Muğan, Gəncə-Daşkəsən və Qarabağ iqtisadi rayonları ilə əhatələnmişdir. İqtisadi rayonun sahəsi 6,6 min km^2, əhalisi isə 724,2 min nəfərdir (Azərbaycanın demoqrafik göstəriciləri, 2025). Əhalinin 49,9%-i işçi qüvvəsindən ibarətdir (Əmək bazarı, 2025). Onlardan 9,6 min nəfəri (2,7%) sənayenin müxtəlif sahələrində çalışırlar (Azərbaycanın sənayesi, 2025). İqtisadi rayonun tərkibinə Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax, Zərdab inzibati rayonları və Mingəçevir şəhəri daxildir (Şəkil 1).



Şəkil 1. Mərkəzi Aran iqtisadi rayonunun sənaye xəritəsi (2025-ci il).

Mərkəzi Aran iqtisadi rayonunda müxtəlif sənaye sahələri-aqro, energetika, maşınqayırma, tikinti materialları, yüngül və s. mühüm yer tutur. Xüsusilə, Mingəçevir şəhəri energetika və yüngül sənaye mərkəzi kimi fərqlənir.

Nəticələr

Mərkəzi Aran iqtisadi rayonu yerüstü təbii sərvətlərlə (bol günəş enerjisi, su ehtiyatı, əkinə yararlı torpaq sahələri və s.) zəngin regionlardan biridir. Bu ehtiyatlar iqtisadi rayonun təsərrüfat sahələrinin, o cümlədən də sənayenin inkişafında və ərazi təşkilində önəmli rol oynayır. Respublikanın sənaye məhsulu həcminin 1,1%-i, sənaye müəssisələrinin 3,5%-i, sənayedə çalışan muzdlu işçilərin isə 3,9%-i Mərkəzi Aran iqtisadi rayonunun payına düşür. Sənayedə çalışan işçilərin nominal əmək haqqı son 5 ildə (2020-2024) 34,4% artaraq 667,6 manat təşkil edir (Azərbaycanın sənayesi, 2025).

Tədqiqat dövrü kimi götürülən 2005-2024-cü illərdə iqtisadi rayonda sənaye müəssisələrinin sayı 33,3%, sənayedə çalışanların sayı 4,5%, sənaye məhsulunun həcmi isə 4,3 dəfə artmışdır (Azərbaycanın sənayesi, 2013; 2025).

İqtisadi rayonun ümumi sənaye məhsulunun həcminin 47,8%-i Mingəçevir şəhərinin, 20,9%-i Kürdəmir, 2,6%-i Ağdaş, 10,0%-i Göyçay rayonunun payına düşür. Zərdab (2,0%) və Ucar (1,9%) rayonları sənaye məhsulunun həcminə görə axırıncı yerdə durur. Mərkəzi Aran iqtisadi rayonunda sənaye məhsulu həcminin 47,1%-i dövlət sektorunun, 52,9%-i isə özəl sektorun payına düşür (cədvəl 1).

Cədvəl 1


2024-cü ildə Mərkəzi Aran iqtisadi rayonunun sənaye göstəricilərinin inzibati rayonlar üzrə bölgüsü

Göstəricilər	Sənaye müəssisələrinin sayı	Sənaye müəssisələrində işləyənlərin sayı	Sənaye məhsulunun həcmi, min manat	Sənaye məhsulunun həcmində özəl sektorun xüsusi çəkisi, %-lə	Sənaye məhsulunun həcmində hasilat sənayesinin payı, %-lə	Sənaye məhsulunun həcmində emal sənayesinin payı, %-lə
Mingəçevir	41	3271	331807,7	18,0	0	21,6
Ağdaş	22	1329	87376,0	87,7	0	87,7
Göyçay	53	1395	69500,6	87,4	0,4	86,9
Kürdəmir	20	1583	145354,6	92,9	0	92,7
Ucar	17	426	12882,1	67,0	0	67,0
Yevlax	28	844	32175,2	59,5	0	59,4
Zərdab	7	724	13982,2	47,0	3,7	43,2
İqtisadi rayon	188	9572	693078,4	52,9	0,11	52,6

Mənbə: Azərbaycanın sənayesi 2024. Bakı, DSK, 2025, 293 s.

İqtisadi rayonda 188 sənaye müəssisəsi fəaliyyət göstərir. İnzibati rayonlar arasında sənaye müəssisələrinin sayının çoxluğuna görə Göyçay (53 müəssisə), Yevlax (28 müəsissə), Ağdaş (22 müəssisə) fərqlənir. Ən az müəssisə Zərdab (7) rayonundadır (cədvəl 1).

İqtisadi rayonda sənayenin əsasını emaledici sənaye təşkil edir. İstehsal edilmiş sənaye məhsulunun 52,6%-i **emaledici sənaye** müəssisələrinin payına düşür. Emaledici sənayeyə qida məhsulları istehsalı, kompüter və digər avadanlıqların istehsalı, elektrik avadanlıqları istehsalı, rezin və plastik kütlə məmulatlarının istehsalı, toxuculuq və geyim məhsulları istehsalı, tikinti materialları istehsalı, hazır metal məmulatların istehsalı və s. sahələr daxildir (şəkil 2).



Şəkil 2. Emaledici sənaye məhsulunun istehsal strukturu %-lə
Mənbə: Azərbaycanın sənayesi 2024. Bakı, DSK, 2025, 293 s.

Emaledici sənayenin əsas aparıcı sahəsi **qida sənayesidir**. İqtisadi rayonda qida sənayesi ən qədim sahələrdən biri olmaqla yanaşı çoxsahəli olması ilə də fərqlənir. Onlara əsasən içki istehsalı, meyvə şirələri, tərəvəz konservi, unüyütmə, çörəkbişirmə, un məmulatları, süd və süd məhsulları, ət və ət məhsulları və s. daxildir. İqtisadi rayonda istehsal edilmiş sənaye

məhsullarının 75,0%-i bu sahənin payına düşür (şəkil 2). Meyvə şirələri və içki istehsalı əsasən Göyçay rayonunda, qismən də Kürdəmir və Yevlax rayonunda inkişaf etmişdir. 1960-cı ildə Göyçay rayonunda yaradılan "Şirə zavodu" 2006-cı ildə yenidən bərpa olunaraq "Aznar"ASC adı ilə fəaliyyət göstərməyə başlamışdır. Bu müəssisədə alma, üzüm və nar şirələri istehsal olunur. Bu məhsullar yerli bazara çıxarılmaqla yanaşı Rusiya, Ukrayna, Almaniya, ABŞ, Yeni Zelandiya, Yaponiya kimi ölkələrə də ixrac olunur. Həmçinin 1998-ci ildə Göyçayda sovet dövründə fəaliyyət göstərən Göyçay Süd Zavodunun nəzdində "Göyçay Süd" ASC yaradılmışdır. Burada əsasən inək südü, pendir və meyvə şirələri istehsal olunur (Каталог компаний, 2014). Zərdab və Ağdaş rayonlarında süd və süd məhsulları istehsal edən müəssisələr fəaliyyət göstərir.

Qida sənayesinin 6,8%-ni içki istehsalı təşkil edir (Azərbaycanın sənayesi, 2025). Kürdəmir rayonunda fəaliyyət göstərən "Şərq-İ LTD" müəssisəsində araq, konyak, şərab məhsulları istehsal olunur. Göyçay rayonunda isə "Göyçay konyak zavodu" ASC fəaliyyət göstərir. Burada əsasən spirtli içkilər, konyak spirti istehsal olunur. Bu məhsullar Belarus, Latviya, Ukrayna, Rusiya ölkələrinə ixrac edilir.

Mingəçevirdə un məmulatları, Ağdaşda şirniyyat, Yevlax və Kürdəmirdə dənüyütmə müəssisələri (dəyirmanlar) fəaliyyət göstərir. Onlardan 1999-cu ildən Ağdaş rayonunda fəaliyyət göstərən "Orelay" firmasında karamel, iris, draje, vafli, şokolad, konfetlər, marmelad istehsal olunur. Ucarda quş əti, Kürdəmirdə ət və ət məhsulları və s. istehsal edən müəssisələr fəaliyyət göstərir (Aran iqtisadi rayonunda demoqrafik inkişaf problemləri...2022). Kürdəmirdə yerləşən "Karat Holding MMC" 2004-cü ildə yaradılmışdır. Burada "Karmen" adı ilə un istehsal olunur. Ucar rayonunda yerləşən Aqro MMC Quş əti emalı müəssisəsi 2012-ci ildə yaradılmışdır. Müəssisənin illik istehsal gücü 2200 tondur. Burada istehsal olunan quş əti "mərcan" adı ilə əsasən Bakı, Sumqayıt şəhərlərinə və Göyçay, Kürdəmir rayonlarına göndərilir.

Son illər iqtisadi rayonda yaradılan sənaye müəssisələrinin əksəriyyəti 1960-80-ci illərdə yaradılmış müəssisələrin bazasında fəaliyyət göstərir. Bu müəssisələrin bir çoxu müasir tipli avadanlıqlarla təchiz olunmuşdur.

Maşınqayırma sənayesi qida sənayesindən sonra iqtisadi rayonda ikinci yeri tutur (emaledici sənayenin 10%-i) (Azərbaycanın sənayesi, 2025). İqtisadi rayon ərazisində maşınqayırma sənayesi əsasən II dünya müharibəsindən sonra formalaşmağa başlamışdır. Əsas mərkəz də Mingəçevir şəhəri idi. 1959-cu ildən Mingəçevir şəhərində fəaliyyət göstərən "Azərkabel" zavodu respublikada ilk kabel istehsal edən zavod olmuşdur (Əliyeva, 2023). Müəssisədə elektrik avadanlıqları istehsal olunurdu. Onu da qeyd edək ki, bu müəssisədə istehsal olunan məhsullar dünyanın bir çox ölkələrinə (Türkiyə, Vyetnam, İran, Əfqanıstan, Almaniya və d.) ixrac edilirdi. "Azərkabel" zavodu 2003-cü ildə özəlləşdirilmiş və cari ildə burada 1213,2 ton elektrik naqilləri istehsal olunmuşdur (Azərbaycanın sənayesi, 2025).

1970-80-ci illərdə Mingəçevir şəhərində "Mingəçevir yol maşınları zavodu" fəaliyyət göstərirdi. Bu zavodda çalaqazan maşınlar, avtoyükləyicilər, su nasosları, buldozerlər və d. məhsullar istehsal olunurdu. 2024-cü ildə burada cəmi 58 ədəd nasos istehsal olunmuşdur (Azərbaycanın sənayesi, 2025). Həmçinin kənd təsərrüfatının inkişafı ilə əlaqədar olaraq bu dövrdə "Mingəçevir Tikinti yol maşınları təmiri zavodu" və "Təcrübi Eksperimental Sınaq zavodu" fəaliyyət göstərirdi. Hər iki müəssisədə kənd təsərrüfatı maşınları təmir olunur və yedək parçalar istehsal edilirdi (Əliyeva, 2023). Hazırda isə bu müəssisələrdə istehsal dayandırılıb, maşın təmiri isə qismən fəaliyyət göstərir. 1999-cu ildə Mingəçevir şəhərində yaradılan "Azneftmaş" ASC-də qazma və sementləmə qurğusu, avar kalibratorları, pnevmatik sürüşmə tutucuları, fırlananlar, buldozer, montaj kranı, sütun korpusları, açarlar və s. istehsal olunur. Bu məhsullar Mərkəzi Asiya, Belarus, Ukrayna, İran, İraq, Rusiya, BƏƏ-nə ixrac olunur (Каталог компаний, 2014).

Son illərdə maşınqayırma sənayesi əsasən kompüter və digər elektron avadanlıqların istehsalı istiqamətində inkişaf edir. İqtisadi rayonda istehsal olunan sənaye məhsulunun dəyərinin 5,3%-i bu sahənin payına düşür. Bu məhsullar Mingəçevir şəhərində yerləşən "Kür" zavodunda istehsal olunurdu. "Kür" zavodu 2005-ci ildə keçmiş Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Teleradio" istehsal birliyi ilə "Sinam" şirkəti tərəfindən birgə yaradılmışdır. 2015-ci ildə isə "Kür" zavodunun yerində "Htech İnvest" şirkəti təsis edilmişdir. Şirkət Mingəçevir Yüksək texnologiyalar parkının ilk rezidenti statusunu almışdır. "Htech İnvest" şirkəti 2016-cı ildən etibarən Tayvanın ACER şirkətinin dəstəyi ilə stolüstü kompüter, nettop və monoblokların istehsalını həyata keçirir. 2015-2024-cü illərdə istehsal etdiyi məhsulun dəyəri 34,5 min manatdan 21497,6 min manata qədər artmışdır (Azərbaycanın sənayesi, 2025). İqtisadi rayonda istehsal olunan kompüter və digər elektron avadanlıqlar respublikanın regionları ilə yanaşı

xarici ölkələrə də ixrac olunur. Bu ölkələrə Özbəkistan, Tacikistan, Qırğızıstan və Gürcüstan daxildir.

Tikinti materialları sənayesi emaledici sənaye məhsulu istehsalının 5,0%-ni təşkil edir (şəkil 2). Tikinti materialları sənayesi istehsalına tikinti kərpici, asfalt, hörmə üçün hazır beton qarışığı, qum daşı, çay daşı, plastik qapı-pəncərə blokları daxildir. Əsas müəssisələrinə Ağdaş və Göyçayda tikinti kərpici istehsalı, Mingəçevir və Göyçayda hazır beton qarışığı istehsalı, Göyçay və Kürdəmirdə asfalt istehsalı aiddir.

Son 14 ildə tikinti materialları istehsalının dəyəri cəmi 8,2% artaraq 16880,6 min manat olmuşdur (Azərbaycanın sənayesi, 2025). Tikinti materialları istehsalı sənayesi əsasən xammal mənbələrinə yaxın və iri şəhərlərdə yerləşdirilir. İqtisadi rayonda tikinti materialları üçün xammal məhdud olduğundan burada olan müəssisələr əsasən gətirilmə xammala əsaslanır.

Mingəçevir şəhərində yerləşən Akkord Tikinti və Sənaye İnvestisiya Korporasiyası ASC-nin tərkibində olan "Mingəçevir Maşınqayırma Zavodu" fəaliyyət göstərir. Bu müəssisədə metal konstruksiyalar, tullantı qabları, metal dam örtüyü və aksesuarları, dəzgah valları, dişli çarxlar, oxlar, barabanlar, muftalar istehsal olunur. "Mingəçevir İzolit" ASC-də isə şüşə lifli borular, müxtəlif konfiqurasiyalı şüşə lifli profillər, polietilen borular və fitinqlər istehsal olunur. Hər iki müəssisədə istehsal olunan məhsullar daxili bazarı təmin etməklə yanaşı Mərkəzi Asiya, Rusiya və Gürcüstan respublikalarına ixrac olunur (Каталог компаний, 2014)

İqtisadi rayonda **yüngül sənaye** sahələri də inkişaf etmişdir. Tərkibinə toxuculuq və tikiş müəssisələri daxildir. İstehsal olunmuş ümumi məhsulun 1,0%-i toxuculuq və geyim sənayesinin payına düşür (şəkil 2). Migəçevirdə pambıq iplik, Yevlaxda üst geyimləri, Göyçayda trikotaj, Kürdəmirdə xalçaçılıq məhsulları istehsal edən müəssisələr fəaliyyət göstərir.

"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq respublikada yüngül sənaye məhsulları üzrə idxalın azaldılması və ixrac potensialının artırılması məqsədi ilə 2015-ci ildə "Mingəçevir Sənaye Parkı" yaradılmışdır. Mingəçevir sənaye parkı 2018-ci ildə rezident kimi qeydiyata alınmışdır. "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə 2 fabriki ("Ring" və "Open End" üsulu ilə) istifadəyə verilmişdir. Bu fabriklərdə 750 yeni iş yeri açılmışdır (İqtisadi zonaların İnkişaf Agentliyinin məlumatı).

2020-ci ildə istifadəyə verilən "Azərxalça" ASC-nin Kürdəmir filialında ətraf rayonların yaşayış məntəqələrinə məxsus xalça çeşnilərinin toxunmasına üstünlük verilir. Xalçalar əsasən yun iplərdən toxunur. Bu da yundan səmərəli istifadəni optimallaşdırır. Müəssisədə 150 nəfərə yaxın işçi çalışır. Toxucular Kürdəmir şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar rayonda təşkil olunan hazırlıq-tədris kurslarında xalçaçılıq üzrə bacarıq və vərdişləri öyrənmişlər.

Yevlax rayonunda 2005-ci ildə istifadəyə verilən Gilan Dəri MMC-də boyalı dəri növləri istehsal olunur ki, bu məhsullar da Mərkəzi Asiya, Belarus, Estoniya, Qazaxıstan, Qırğızıstan, Latviya və s. ölkələrə ixrac olunur. Müəssisədə 220 işçi çalışır (Каталог компаний, 2014). Həmçinin rayonda Lalə Texstil MMC fəaliyyət göstərir ki, burada da mülki və hərbi geyimlər istehsal olunur.


2024-cü ildə 2385,9 min manat dəyərində toxuculuq və geyim məhsulları istehsal olunmuşdur ki, bu da son 5 ildə 85,6% azalma deməkdir (Azərbaycanın sənayesi, 2025).

Kimya sənayesi 1971-ci ildə Mingəçevir şəhərində texniki-rezin məmulatları zavodunun istismara verilməsi ilə inkişaf etməyə başlamışdır. Zavodda sənaye, kənd təsərrüfatı, dəmir yolu nəqliyyatı, neft sənayesi və təsərrüfatın başqa sahələri üçün 300-dən artıq müxtəlif növ texniki-rezin məmulatları hazırlanırdı. Bu zavod 2000-ci ilə qədər fəaliyyət göstərmiş sonradan fəaliyyətini dayandırmışdır. 1970-80-ci illərdə iqtisadi rayon ərazisində yaradılan kimya müəssisələrindən biri də şüşə mahlıc zavodu idi. Bu zavodda əsasən elektroizolyasiya, istilik izolyasiyası və hidroizolyasiya və s. məhsullar istehsal edilirdi.

Hazırda kimya sənayesi məhsullarının dəyəri iqtisadi rayonun emal sənayesinin 1,0%-ni təşkil edir (şəkil 2). Həmçinin rəsmi statistik məlumatlara əsasən kimya sənayesi (rezin və plastik kütlə məmulatlarının istehsalı) müəssisələri əsasən Mingəçevir şəhərində (36,9%), Yevlax (19,6%0) və Göyçay (17,1%) rayonlarında fəaliyyət göstərir (Azərbaycanın sənayesi, 2025).

Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı sahəsi iqtisadi rayonda istehsal edilmiş sənaye məhsulunun 45,3%-ni təşkil edir (şəkil 3). 2024-cü ildə respublika üzrə elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı sahəsində istehsal olunan məhsulun və göstərilən xidmətin dəyərinin 9,7%-i Mərkəzi Aran iqtisadi rayonunun payına düşmüşdür. 2024-cü ildə bu sahədə 313,6 min manatlıq məhsul istehsal olunub və xidmət göstərilmişdir. 2005-ci illə müqaisədə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində məhsul istehsalı və göstərilən xidmətlərin həcmi 95,6% artmışdır (Azərbaycanın sənayesi, 2025). İqtisadi rayonda əsas enerji

istehsalı Mingəçevir şəhərində, qismən də Göyçay rayonunda inkişaf etmişdir. Mingəçevir şəhəri respublikanın əsas energetika mərkəzlərindən biridir. Mingəçevir şəhəri enerji istehsalına (4880,0 mln. kv saat) görə Bakı və Şirvan şəhərlərindən sonra 3-cü yerdə durur (Azərbaycanın sənayesi, 2025). Şəhərdə 1954-cü ildə ilk SES işə salınmışdır. Respublikanın ən böyük İES-i olan "Azərbaycan DRES" də bu şəhərdə fəaliyyət göstərir. 1981-ci ildə tikilən, 10 bloklu "Azərbaycan DRES"i 3,6 mln. kvt gücə malikdir. Qaz və mazutla işləyən stansiya Azərbaycanda illik elektrik enerjisi hasilatının kəmiyyət göstəricisinin artmasına səbəb olmuşdur (Məmmədov və b., 2006). Burada sonuncu 8 №-li enerji bloku 1990-cı ildə istismara verilmişdir (Azərbaycan Respublikasının coğrafiyası, 2015).



Şəkil 3. İqtisadi fəaliyyət növləri üzrə sənaye məhsulu istehsalının həcminin illər üzrə dəyişilməsi
Mənbə: Azərbaycanın sənayesi 2013, 2024. Bakı, DSK, 2014, 2025. 338 s., 293 s.

Su təchizatı, tulantıların təmizlənməsi və emalı sahəsində respublika üzrə istehsal edilmiş məhsulun və göstərilən xidmətin həcminin 0,2%-i iqtisadi rayonun payına düşür. Bu sahədə istehsal olunan məhsulun və göstərilən xidmətin həcmi 2005-2024-cü illər ərzində 15,5 dəfə artaraq 14,0 milyon manat olmuşdur (şəkil 3). İqtisadi rayonun ümumi sənaye məhsulunun 2,0%-i bu sahənin payına düşür (Azərbaycanın sənayesi, 2025).

Mədənçıxarma sənayesi məhsulunun dəyərinə görə Mərkəzi Aran (0,03%) respublikanın iqtisadi rayonları arasında axırıncı yerlərdən birini tutur. 2024-cü ildə mədənçıxarma sənayesi məhsulunun dəyəri 187,8 min manat olmuşdur. Bu göstərici 2005-ci ildə 13303,1 min manat təşkil edirdi ki, bu da 70 dəfə azalma deməkdir (Azərbaycanın sənayesi, 2025). İqtisadi rayonda yeraltı təbii sərvətlərin azlığı mədənçixarma sənayesinin inkişaf etməməsinə səbəb olmuşdur (şəkil 3).

Respublikanın bütün iqtisadi rayonlarında olduğu kimi Mərkəzi Aran iqtisadi rayonunda da sosial-iqtisadi inkişaf strategiyasının əsasını təsərrüfat sahələrinin, o cümlədən də sənayenin inkişafı təşkil edir. İqtisadi rayonların inkişafına dair bu günə kimi dörd və sənayenin inkişafına dair bir dövlət proqramı qəbul edilmiş və həyata keçirilmişdir.

Mərkəzi Aran iqtisadi rayonu ərazisində 2004-2008-ci illər dövlət proqramına əsasən 9 sənaye müəssisəsi yaradılmış, 5 sənaye müəssisəsi isə yenidən bərpa edilmişdir ki, bu da müəssisələrin sayının 11,0% artmasına səbəb olmuşdur (cədvəl 2). Həmçinin bu müddət ərzində sənaye məhsulunun dəyəri 29,7%, bu sahədə özəl sektorun xüsusi çəkisi 6,7%, orta aylıq əməkhaqqı isə 2,7 dəfə artmışdır (Regionların sosial-iqtisadi inkişafı, 2009; Azərbaycanın sənayesi, 2025).

2009-2013-cü illlər dövlət proqramında nəzərdə tutulan tədbirlər əsasında 1 sənaye müəssisəsi ("Lalə Kemikl" MMC və) tikilib istifadəyə verilmişdir (cədvəl 2). Bu dövrdə sənayedə özəl sektorun xüsusi çəkisi 7,3% və işçilərin sayı 6,6% azalmış, sənaye məhsulunun

dəyəri 103,0%, orta aylıq əməkhaqqı isə 67,9% artmışdır (Regionların sosial-iqtisadi inkişafı, 2014; Azərbaycanın sənayesi, 2025). 2014-2018-ci illərdə dövlət proqramında sənaye sahəsi üzrə nəzərdə tutulmuş tədbirlər əsasında 6 sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir (Azərbaycanda tikinti, 2025). Müəssisələrin sayı 16%, istehsal olunan məhsul həcminin dəyəri 2,0 dəfə artmışdır (Regionların sosial-iqtisadi inkişafı, 2019; Azərbaycanın sənayesi, 2025).

2014-cü ilin respublikada "Sənaye ili" elan olunması ilə əlaqədar iqtisadi rayonda bu istiqamətdə önəmli addımlar atılmışdır. Belə ki, "Sənaye ili"ndə Ağdaş inzibati rayonunda üç sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir (cədvəl 2).

2019-2023-cü illər üzrə dövlət proqramının yerinə yetirilməsi ilə əlaqədar 2 sənaye müəssisəsi yaradılmışdır (cədvəl 2). Həmçinin bu müddət ərzində sənaye məhsulunun dəyəri 11,9%, bu sahədə özəl sektorun xüsusi çəkisi 10,1%, orta aylıq əməkhaqqı 45,5% artmışdır (Regionların sosial-iqtisadi inkişafı, 2024; Azərbaycanın sənayesi, 2025).

Cədvəl 2

Mərkəzi Aran iqtisadi rayonunda 2004-2024-cü illər ərzində yaradılan sənaye müəssisələri

Göstəricilər	İstifadəyə verildiyi yer	Müəssisənin adı	Yenidən bərpa olunanlar	Ölçü vahidi	İstifadəyə verilmiş güc	İşçilərin sayı (nəfərlə)
2006	Göyçay	Göyçay Barama idarəsi		Kq	...	...
2007		Nar şirəsi sexi		İldə min şərti butulka	200	
2008		Göyçay-Tikiş	+	...	...	200
		Göyçay-Şərab		dekalitr	...	...
		Garnet		Litr	Saatda 10-12 L	...
		Göyçay Konyak zavodu	+	dekalitr	...	...
		Göyçay Konserv zavodu	+	ədəd	...	...
		Göyçay Süd zavodu	+	Litr	...	...
2007		Kərpic – San LTD	+	ədəd		
2008	Ağdaş	Ərəş Regional Ticarət Mərkəzi		...	...	...
2008	Ağdaş	Tikiş və trikiotaj müəssəsi		...	...	...
2008	Zərdab	"Qorizont-1" kooperativi nəzdində kərpic sexi		ədəd	İldə 3 mln	...
2013	Yevlax	"Lalə Kemikl" MMC		...	...	...
2018	Mingəçevir	"Mingəçevir Tekstil" MMC		kq	İldə 20 min ton	750
2008	Kürdəmir	Konserv zavodu		İldə min şərti butulka	52.6	
2006	Mingəçevir	Kompüter istehsal müəssəsi		Kompüter sutkada ədəd	140,0	
2009	Mingəçevir	İstilik elektrik stansiyasında 4-cü enerji bloku	+	MVt	330	
2014	Ağdaş	Meyvə emalı zavodu		İldə ton	200	
2014	Ağdaş	Yem zavodu		İldə min ton	210	
2014	Ağdaş	Ağdaş Elektrik yarımstansiyası		MVa	360,0	
2015	Göyçay	SES		MVa	3,1	
2018	Mingəçevir	"Ring" üsulu ilə iplik istehsalı müəssisəsi		İldə min ton	10,0	
2018	Mingəçevir	"Open end" üsulu ilə iplik istehsalı müəssisəsi		İldə min ton	10,0	
2019	Ağdaş	Biyan Sənayə Parkı		Kq/saat	2300,0	
2020	Kürdəmir	Xalça istehsalı Emalatxanası		İldə m^2	1004	

Mənbə: Azərbaycanda tikinti 2024. Bakı, DSK, 2025. 249 s.

Müzakirə

Ümumiyyətlə, sənaye sahələrinin səmərəli yerləşdirilməsi və kompleks inkişafı regionlarda mövcud olan təbii ehtiyatlardan səmərəli istifadə etməklə yanaşı, əhalinin sosial həyatında və təsərrüfat fəaliyyətində mühüm rol oynayır (İmrani və Zeynalova, 2014). Hər bir regionda sənayenin ərazi təşkili əsasən texniki-iqtisadi, təbii, tarixi, sosial-iqtisad amillərlə şərtlənir (Məmmədov və b., 2006). Tədqiqat regionunun iqtisadi-coğrafi mövqeyi (mərkəzdə və ən mühüm nəqliyyat yollarının üzərində yerləşməsi), əhalisi (əmək ehtiyatlarının çoxluğu), təbii şəraiti (əsas hissəsinin düzənlikdə yerləşməsi (cənub hissəsi), aqroiqlim ehtiyatlarının zənginliyi), təbii resursları (su, torpaq enerji) və. s. sənaye sahələrinin inkişafında və yerləşdirilməsində əhəmiyyətli təsirə malikdir.

Apardığımız tədqiqatın nəticələri göstərir ki, Mərkəzi Aran iqtisadi rayonunun əlverişli iqtisadi-coğrafi mövqeyi, ölkənin əsas nəqliyyat magistralları üzərində yerləşməsi, zəngin kənd təsərrüfatı xammal bazası və enerji resursları burada müxtəlif sənaye sahələrinin inkişafı üçün əlverişli şərait yaratsa da regionun respublikanın sənaye məhsulunda payı aşağı göstəriciyə malikdir.

Aparılmış təhlil sənaye istehsalının ərazi baxımından qeyri-bərabər yerləşdiyini göstərmişdir. Sənaye müəssisələrinin və istehsal olunan məhsulun həcminin əsas hissəsinin Mingəçevir və Yevlax kimi sənaye mərkəzlərində cəmləşməsi həmin şəhərlərin inkişaf etmiş infrastruktur, enerji təminatı və əmək ehtiyatlarının çoxluğu ilə əlaqədardır. Belə vəziyyət bir tərəfdən sənayedə istehsalın səmərəliliyini artırsa da, digər tərəfdən iqtisadi rayon daxilində ərazi fərqlərinin yaranmasına səbəb olur. Ən az sənaye müəssisələri Zərdab inzibati rayonundadır. Bunun əsas səbəbi xammal entiyatlarının məhdudluğu, iri sənaye və nəqliyyat mərkəzlərindən nisbətən uzaqda yerləşməsi, əhalinin sayının azlığı, investisiya cəlbediciliyinin zəifliyi və s. amillərdir.

Son illər iqtisadi rayonda yeni sənaye müəssisələri açılsa da sənayedə çalışanların sayında azalma müşahidə olunur ki, bu da sənaye müəssisələrində mexanikləşdirilmə və avtomatlaşdırma sisteminin tətbiqi ilə əlaqədardır. Onu da qeyd edək ki, inzibati rayonlarda (Göyçay, Yevlax, Kürdəmir) sənaye sahələrinin nisbətən inkişafı iqtisadi rayonda bu sahədə çalışanların Mingəçevir şəhəri üzrə payının azalmasına səbəb olmuşdur.

Sənayenin strukturu üzrə apardığımız təhlil göstərir ki, emaledici sənayenin əsas hissəsini təşkil edən qida sənayesi iqtisadi rayonda aparıcı mövqeyə malikdir. Buna səbəb regionun kənd təsərrüfatı xammalı üzrə yaxşı təmin olunması və qida məhsullarına tələbatın yüksək olmasıdır. Onu da qeyd edək ki, qida sənayesi əsasən kənd təsərrüfatının ixtisaslaşmasına uyğun olaraq inkişaf etmişdir. İqtisadi rayonda nar, xurma, heyva bağlarının geniş yayılmasını (respublika üzrə adları çəkilən meyvələrin 1/3-dən çoxu bu regionun payına düşür) (Azərbaycanın kənd təsərrüfatı, 2025) nəzərə alaraq gələcəkdə meyvə şirələrinin istehsalının təşkili və perspektiv imkanlarının yüksək olduğunu deyə bilərik. Qida sənayesinin ərazi təşkili zamanı xammal mənbələrinə və istehlakçıya yaxınlıq əsas götürülür. Bu sahənin kənd təsərrüfatı ilə birbaşa əlaqədar olduğunu nəzərə alaraq həm iqtisadi rayonda, həm də ətraf rayonlarda istehsal olunan kənd təsərrüfatı məhsullarının emalını həyata keçirən müəssisələrin yaradılması və ya keçmişdə mövcud olan müəssisələrin fəaliyyətinin bərpa olunması zəruri sayılır. Belə ki, iqtisadi rayonda qida sənayesinin inkişafı kənd təsərrüfatı məhsullarından səmərəli istifadə etməklə yanaşı, əhalinin məşğulluğunda və regionun sosial-iqtisadi inkişafında müsbət rol oynayır.

Bununla yanaşı, maşınqayırma və tikinti materialları sahələri də sənaye istehsalının formalaşmasında mühüm rol oynayır. Yüngül və kimya sənaye sahələri isə sənaye məhsulu istehsalının həcmində çox az paya malikdir. Son illərdə dövlət proqramları nəzdində yaradılmış sənaye parkları və sənaye məhəllələrinin fəaliyyəti sənayenin şaxələndirilməsinə və yeni investisiyaların cəlb edilməsinə müsbət təsir göstərmişdir. Xüsusilə, maşınqayırma (kompüter və digər elektron avadanlıqlarıın istehsalı) və yüngül (pambıq iplik istehsalı) sanaye sahələrinin inkişafında yeni yaradılmış sənaye parklarının əhəmiyyətli rolu olmuşdur. Bu kimi yüngül sənaye parklarının açılması gələcəkdə milli tekstil brendlərinin yaradılması istiqamətində atılan mühüm addımlardandır. Həmçinin Sənaye parkının Bakı-Qazax magistralına yaxın yerləşməsi buradan Gürcüstan vasitəsilə Avropa bazarına çıxışının olması logistika imkanlarını artırır. Yüngül sənayenin inkişaf etməsi yerli xammal bazarının formalaşmasını tələb edir ki, onun da əsas aparıcı qüvvəsi kənd təsərrüfatı hesab olunur (Məmmədov (Red.), 2017). İqtisadi rayonda yüngül sənaye əsasən yerli xammalın (pambıq, yun, dəri) emalına əsaslansa da ərazi təşkili zamanı əmək ehtiyatları və istehlakçıya yaxınlıq da əsas götürülmüşdür.

İqtisadi rayonda emaledici sənayedə ən az paya malik olan kimya sənayesinin inkişafı və ərazi təşkili ilk növbədə xammal bazası, su təminatı və enerji resursları ilə sıx əlaqədardır. Sovet

dövründə regionda bu sahənin formalaşmasında Kür çayına və Mingəçevir enerji mərkəzinə yaxınlıq mühüm rol oynamışdır. Bununla belə, Sovet dövründə fəaliyyət göstərən və yüksək istehsal potensialına malik olan bir sıra kimya müəssisələri müstəqillik illərində öz fəaliyyətini tamamilə və ya qismən dayandırmışdır. 2001-ci ildə "Kimya sənayesi müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi haqqında" qanunda Mingəçevir şüşə lifi, Mingəçevir rezin texniki məmulatları, Mingəçevir "Regenerator" müəssisələrinin satışı və özəlləşdirilməsi haqqında sərəncam verilmişdir (Kimya sənayesi müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi haqqında sərəncam, 2001). Sonrakı dövrlərdə də bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə baxmayaraq, iqtisadi rayonda kimya sənayesinin inkişaf tempi digər emal sənaye sahələri ilə müqayisədə zəif qalmış və mövcud potensialdan tam istifadə olunmamışdır.

Sənayenin strukturunda emaledici sənayedən sonra ikinci ən mühüm sənaye sahəsi elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatıdır. İqtisadi rayonda əsas enerji mərkəzi Mingəçevir şəhəri sayılır. Energetika sənayesinin Mingəçevirdə yerləşdirilməsində əsasən şəhərin təbii və iqtisadi coğrafi mövqeyi, Kür çayının hidroenerji potensialının yüksək olması, enerji istehsalında xammala birbaşa ehtiyacın olmaması və s. kimi amillər nəzərə alınmışdır. Həmçinin Mingəçevir Sovet dövründə planlı sənaye siyasəti əsasında yaradılmış "energetika şəhəri"dir.

Ümumiyyətlə, iqtisadi rayonda sənayenin bəzi sahələrində nisbətən inkişaf olsa da, əsas problemlər hələ də qalmaqda davam edir. Belə ki, istehsalın Mingəçevir və Yevlax şəhərində cəmləşməsi, bəzi müəssisələrdə əsas avadanlıqların köhnəlməsi, yüksək texnologiyalı istehsal sahələrinin zəif inkişafı və innovasiya fəaliyyətinin məhdud olması regionun sənaye potensialından tam istifadə edilməsinə mane olur. Xüsusilə, iqtisadi rayonda fəaliyyət göstərən daşkarxanalarının, dəmir və beton zavodlarının və s. çox hissəsi sovet dövründən qalan müəssisələrdir. Sovet dövründə Mingəçevirdə fəaliyyət göstərən qum-çınqıl zavodu, iri panellərdən evtikmə kombinatı, dəmir-beton konstruksiyaları zavodu və digər oxşar profilli müəssisələr həm şəhərin özündə, həm də digər rayon və kəndlərdə sürətli tikinti işləri aparmaq üçün imkanlar yaradırdı. Lakin müstəqillik dövründə bu müəssisələrin bir çoxu fəalliyətini dayandırmış, bir hissəsində isə avandanlıqlar köhnə olduğundan fəaliyyəti qənaətbəxş sayılmır.

Bu problemlərin aradan qaldırılması üçün sənayenin ərazi təşkilinin təkmilləşdirilməsi, innovativ istehsal sahələrinin genişləndirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və sənaye müəssisələrinin iqtisadi rayonun nisbətən geri qalmış ərazilərində inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Məqalənin giriş hissəsində də qeyd etdiyimiz kimi iqtisadi rayonların inkişafına dair bu günə kimi dörd və sənayenin inkişafına dair bir dövlət proqramı qəbul edilmiş və həyata keçirilmişdir. Bütün bu kimi tədbirlərin həyata keçirilməsi iqtisadi rayonda sənayenin davamlı inkişafına, investisiya qoyuluşunun artmasına, sahibkarlıq mühitinin inkişaf etdirilməsinə, yeni sənaye müəssisələrinin və iş yerlərinin açılmasına qismən şərait yaratmışdır.

Beləliklə, aparılmış iqtisadi-coğrafi təhlil göstərir ki, Mərkəzi Aran iqtisadi rayonunun mövcud potensialından daha səmərəli istifadə olunması regionun sənaye kompleksinin rəqabət qabiliyyətinin yüksəldilməsinə və sosial-iqtisadi inkişafının sürətləndirilməsinə imkan verə bilər.

Nəticə

Mərkəzi Aran iqtisadi rayonunda sənayenin ərazi təşkili, onun müsbət və mənfi xüsusiyyətləri əsasən regionun təbii-coğrafi mövqeyi, əmək ehtiyatları, kənd təsərrüfatı və nəqliyyat imkanları ilə bağlıdır. Belə ki, iqtisadi rayonda sənaye əsasən şəhər və iri yaşayış məntəqələrində (Mingəçevir, Yevlax, Göyçay və s.) cəmləşmiş, kənd təsərrüfatı xammalına yaxınlıq prinsipi ilə yerləşmiş, nəqliyyat qovşaqları və enerji mənbələrinin (xüsusilə Mingəçevir SES) ətrafında formalaşmışdır. İqtisadi rayonun sənaye strukturunda həm ənənəvi energetika, həm də müasir aqrar-sənaye kompleksi əsas yer tutur.

İqtisadi rayonun respublikanın mərkəzində yerləşməsi, digər regionlarla iqtisadi əlaqələrin rahatlığı, kənd təsərrüfatı xammalı ilə zəngin olması, inkişaf etmiş nəqliyyat şəbəkəsinin və enerji təminatının güclü olması, əmək ehtiyatlarının bolluğu, sənayenin inkişafına və ərazi təşkilinə müsbət təsir göstərir.

Mərkəzi Aran iqtisadi rayonunda son illərdə sənaye müəssisələrinin yaradılması və yenidən qurulması sahəsində sənayenin inkişafı baxımından bir çox işlər görülsə də sənayedə sahə müxtəlifliyinin azlığı, sənaye tullantıları nəticəsində su və torpaq çirklənmələrinin artması, su ehtiyatlarından səmərəsiz istifadə, sovet dövründən qalan müəssisələrdə avadanlıqların köhnə olması, istehsalın iqtisadi rayonun bir hissəsində cəmlənməsi problemləri mövcuddur.

Sənayenin inkişafında, modernləşməsində, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsul istehsalında və ixrac qabiliyyətinin artırılmasında, həmçinin məşğulluq səviyyəsinin yüksəlməsində sənaye parklarının və

klasterlərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Buna görə də iqtisadi rayonda yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin artırılması sənayeləşmə siyasətinin əsas prioritetlərindən biridir. Bununla yanaşı, infrastrukturun yenilənməsi, regionlararası məhsul mübadiləsinin aparılması, tullantıların təkrar emal edilməsi, kadr potensialının inkişafı, inovasiya yönümlü texnologiyaların tətbiqi istiqamətində tədbirlərin davamlı olması zəruridir.

İqtisadi rayonun, xüsusilə də Kürdəmir, Ucar və Yevlax inzibati rayonlarının logistika potensialının üstünlüyünü nəzərə alaraq burada məhsulların saxlanması və paylanması üçün böyük anbar və yük terminallarının yaradılması sənayenin inkişafına və ərazi təşkilində önəmli əhəmiyyətə malik ola bilər.

ƏDƏBİYYAT

Abbasova, L. M. (2024). Azərbaycanda sənayenin kompleks inkişafının prinsipləri və iqtisadi-coğrafi problemləri. *Coğrafiya və təbii resurslar*, 2(22), 72–78.

Azərbaycan Respublikasının coğrafiyası: Regional coğrafiya (Cild 3). (2015). Avropa Nəşriyyatı.

Azərbaycan Respublikasının Prezidenti. (2001). *Kimya sənayesi müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi haqqında* [Sərəncam]. https://e-qanun.az/framework/4475

Azərbaycan Respublikasının Prezidenti. (2014). *Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı*. https://e-qanun.az/framework/28964

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2009). *Regionların sosial-iqtisadi inkişafı (2004–2008-ci illər)*.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2014a). *Azərbaycanın sənayesi 2013*.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2014b). *Regionların sosial-iqtisadi inkişafı (2009–2013-cü illər)*.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2019). *Regionların sosial-iqtisadi inkişafı (2014–2018-ci illər)*.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). *Regionların sosial-iqtisadi inkişafı (2019–2023-cü illər)*.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025a). *Azərbaycanda tikinti 2024*.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025b). *Azərbaycanın demoqrafik göstəriciləri 2024*.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025c). *Azərbaycanın kənd təsərrüfatı 2024*.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025d). *Azərbaycanın sənayesi 2024*.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025e). *Əmək bazarı 2024*.

Babayeva, Z. R. (2017). Azərbaycan Respublikasında yeyinti sənayesinin əsas inkişaf prioritetləri. *Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, 20*, 457–462.

Bagirova, F. R. (2020). Хозяйственная структура и проблемы экономико-географического развития промышленных узлов Азербайджана. *География и туризм, 57*, 42–49.

Eminov, Z. N. (2009). Azərbaycanda sənayenin strukturunun təkmilləşdirilməsi və əmək ehtiyatlarından istifadə problemləri. *Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, 14*, 120–124.

Eminov, Z. N. (2022). *Aran iqtisadi rayonunda demoqrafik inkişaf problemləri və əhalinin məskunlaşması*. Region Press.

Əliyeva, A. (2023, 3 dekabr). Ulu öndər Mingəçeviri müasir sənaye şəhərinə çevirdi. *Xalq qəzeti*, 5.

Hüseynov, S. K. (1984). *Azərbaycan SSR-də sənayenin ərazi üzrə təşkilinin təkmilləşdirilməsi problemləri*. Elm.

Hüseynov, T. H. (2023). *Azərbaycanda sənayeləşdirmə: Reallıqlar və perspektivlər*. Apostrof-A.

İmrani, Z. T., & Zeynalova, K. Z. (2014). *Azərbaycanda təsərrüfatın ərazi təşkilinin iqtisadi-coğrafi xüsusiyyətləri*. Nafta-Press.

İqtisadi Zonaların İnkişafı Agentliyi. (n.d.). *Sənaye zonaları*. https://economiczones.gov.az

Jafarov, S., Imrani, Z., & Eminov, Z. (2024). The current state of foreign trade relations of the Republic of Azerbaijan. *South Florida Journal of Development*, *5*(7), e4194. https://doi.org/10.46932/sfjdv5n7-034

Jafarov, S. (2024). Education, research and globalization. *South Florida Journal of Development*, *5*(10), e4485. https://doi.org/10.46932/sfjdv5n10-012

Jafarov, S. & Aliyev, Y. (2022). Education Policy and Leadership. *International Journal of Innovation and Economic Development, 7*(6), 14-23. https://doi.org/10.18775/ijied.1849-7551-7020.2015.76.2002

Jafarov, S. (2024). Accreditation and quality assurance in World-Leading universities. *International Journal of Current Science Research and Review, 07*(12). https://doi.org/10.47191/ijcsrr/v7-i12-77

Martin, R., & Martin, H. (2023). The role of demand in regional industrial path development: Examples from the Swedish periphery. *European Planning Studies, 31*(9), 1975–1992.

Məmmədov, R. H., Bəhərçi, T., və d. (2006). *Dünyanın iqtisadi və sosial coğrafiyası*. İqtisad Universiteti.

Məmmədov, R. M. (Red.). (2017). *Azərbaycanda yüngül sənayenin ərazi təşkili problemləri*. Avropa Nəşriyyatı.

Nadirov, A. A. (1976). *Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri*. Elm.

Nadirov, A. A., Muradov, Ş. M., və d. (2003). *Azərbaycan iqtisadiyyatı*. Elm.

Nadirov, A. A. (Red.). (2013). *Azərbaycan regionlarında tarazlı və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişaf istiqamətləri*. Elm.

Paşayev, N. Ə., Əyyubov, N. H., və d. (2010). *Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası*. Çıraq.

Zaprudski, İ. (2020). Transformation of the territorial and sectoral structure of industry of the Republic of Belarus. *Ukrainian Geographical Journal*, (4), 29–37.

Бухтиярова, Т. И., Батурина, И. Н., & Кутенина, И. А. (2025). Цифровая трансформация — условие устойчивого развития АПК. *Вестник Научно-исследовательского центра корпоративного права, управления и венчурного инвестирования Сыктывкарского государственного университета, 5*(3), 300–308.

Гаджизаде, А. М. (1975). *Азербайджанский промышленный комплекс*. Азернешр.

Каталог компаний 2014. (2014). Министерство промышленности и экономики Азербайджанской Республики.

Лаженцев, В. Н. (2014). Теория и практика формирования территориально-производственных комплексов. *Вестник Научно-исследовательского центра корпоративного права, управления и венчурного инвестирования Сыктывкарского государственного университета*, (2), 58–68.

ECONOMIC-GEOGRAPHICAL ANALYSIS AND TERRITORIAL ORGANIZATION OF INDUSTRY IN THE CENTRAL ARAN ECONOMIC REGION

Hicran Tahirova[1]*

[1]*Institute of Geography, Ministry of Science and Education of the Republic of Azerbaijan*

**Corresponding author: hicran.tahirova@geo.edu.az*

Abstract. The article comprehensively analyzed the development dynamics of industrial sectors in the Central Aran economic region in terms of sector and territory over the years. The study studied the trends in the change of production and types of activity in the main sectors such as processing, food, mechanical engineering, construction materials and light industry. Within the framework of the geographical approach, the distribution of industrial production in the Central Aran economic region by administrative districts was studied, the level of specialization and functional role of the industry within the region was determined.

At the same time, the location of industrial enterprises, their balanced distribution in the geographical structure and their connection with infrastructure were analyzed. As a result of the study, it was noted that additional investments, technological innovation and expansion of logistics capabilities are needed for the development of industry in the region.

During the study, methods such as cartographic, comparative analysis, statistical analysis, system-structure were used, and changes in the territorial organization and structure of the industry were shown on the basis of maps and graphic materials.

Finally, recommendations were given for the sustainable development of industry and more efficient territorial organization, and among them, issues such as the creation of industrial parks, more efficient use of local resources, and strengthening interregional economic relations were particularly emphasized.

Keywords: *Central Aran, industry, production, territorial organization, processing industry, energy production.*

İstinad vermək üçün (APA 7):

Tahirova, H. (2026). Mərkəzi Aran iqtisadi rayonunda sənayenin iqtisadi-coğrafi təhlili və ərazi təşkili. *Coğrafiya və Təbii Resurslar, 12*(1), 85–96. https://doi.org/10.5281/zenodo.23481054